# AZƏRBAYCAN RESPUBLİKASI

# VERGİLƏR NAZİRLİYİ

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

*Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsi*

**Seçilmiş ölkələrdə aşağıdakı mövzular üzrə araşdırmalar:**

**1 – Sahibkarlıq fəaliyyətinə başlamaq üçün minimum yaş həddi nə qədərdir?**

**2 – Dövriyyələrinə görə fiziki şəxslərin təsnifatı mövcuddurmu?**

**2014**

## Böyük Britaniya

Birləşmiş Millətlər təşkilatının Uşaq Hüquqlarının qorunması üzrə Konvensiyasının (bu Konvensiyaya Böyük Britaniya 1991-ci ildə qoşulmuşdur) 1-ci maddəsinə əsasən 18 yaşından aşağı olan şəxslər uşaq və ya azyaşlı hesab edilir. Eyni zamanda Böyük Britaniyanın Şirkətlər haqqında Qanunun 10-cu Hissəsinin 1-ci fəslinin 157-ci maddəsinin 1-ci bəndinə əsasən Böyük Britaniya qanunvericiliyinə əsasən sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq o cümlədən şirkətdə rəhbər təyin oluna bilmək üçün minimum yaş həddi 16 müəyyən edilmişdir.

Göründüyü kimi, Böyük Britaniyada 18 yaşından aşağı şəxslər uşaq(azyaşlı) hesab edildiyi halda Şirkətlər Haqqında Qanun onların sahibkarlıq fəaliyyyəti ilə məşğul olmasına yol verir.

## Almaniya Federativ Respublikası

Almaniyada əmək fəaliyyətinə başlamaq üçün minimum yaş 13-dür. Belə təcrübələr olduqca azdır və bu halda valideynlərin icazəsi tələb olunur. Ümumilikdə əmək fəaliyyətinə başlama yaşı 18, təqaüd yaşı 67-dir. Almaniyada azyaşlıların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını təsdiqləyən qanunvericilik sənədi tapılmadı. Amma araşdırma nəticəsində sahibkarların yaş həddini qruplaşdıran sorğular aşkar olundu. Həmin sorğularda 14 yaşlı şəxslərə sahibkar qismində sorğu ünvanlanmışdı. Bunun nəticəsində qənaətə gəlirik ki, Almaniyada sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün minimum yaş həddi 14-dür.